*ASC «Xalq» Bankı tərəfindən təqdim edilən bank (maliyyə) xidmətləri ilə bağlı suallar yarandıqda, həmin xidmətlərdən istifadə zamanı sizin istehlakçı hüquqlarınız pozulduqda, o cümlədən qarşılaşdığınız hər hansı digər çətinliklər barədə (+99412) 966 qaynar xətti və ya (+99412) 493 50 58 telefon nömrəsi vasitəsilə Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edə bilərsiniz.*

# *ASC «Xalq» Bankında Fiziki şəxslər tərəfindən əmanətlərin yerləşdirilməsinə dair Şərtlər*

## *1. TERMİN VƏ ANLAYIŞLAR*

1.1. **Tərəflər** – Bank və Əmanətçi;

1.2. **Bank** - Azərbaycan Respublikasının qanunvericiliyinə görə hüquqi şəxs olan Açıq Səhmdar Cəmiyyəti "Xalq" Bankı (Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş 27 dekabr 2004-cü il tarixli 246 saylı Bank fəaliyyətinin həyata keçirilməsi üçün Bank lisenziyası; hüquqi ünvanı: Azərbaycan Respublikası, AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 22L, məhəllə 494; elektron poçt ünvanı: mail@xalqbank.az);

1.3. **Əmanətçi** – Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, Müqavilə əsasında Bankda pul vəsaitini əmanətə yerləşdirən rezident və ya qeyri-rezident fiziki şəxs;

1.4. **Xeyrinə əmanət yerləşdirilən şəxs** – Uşaq yığım əmanəti növü üzrə Əmanətçi tərəfindən Müqavilədə nəzərdə tutulan şərtlərlə və qaydada Bankda adına pul vəsaiti yerləşdirilən şəxs;

1.5. **Əmanət** – Bankın Azərbaycan Respublikasının milli valyutasında və ya xarici valyutada müəyyən müddətə və Müqavilə ilə nəzərdə tutulmuş hallarda və şərtlərlə faizlər şəklində gəliri ödəməklə Əmanətçidən qəbul etdiyi pul vəsaitləri;

1.6. **Əmanət müqaviləsi (Müqavilə)** – Əmanətçi tərəfindən Əmanətin yerləşdirilməsi haqqında Ərizənin imzalanması və ASC "Xalq" Bankında Fiziki şəxslər tərəfindən əmanətlərin yerləşdirilməsinə dair bu Şərtlərə (bundan sonra – Şərtlər) qoşulması, Bank tərəfindən isə həmin Ərizənin (ofertanın) aksept edilməsi yolu ilə müvafiq növdə bank əmanəti üzrə Bankla Əmanətçi arasında bağlanan müqavilə, bu şərtlə ki, Əmanət məbləği Bank tərəfindən Ərizənin aksept edildiyi tarixdə Bankda yerləşdirilmiş olsun. Müqavilə bu Şərtlər, Əmanətçi tərəfindən imzalanmış və Bank tərəfindən aksept edilmiş Əmanətin yerləşdirilməsi haqqında Ərizə və Bankın tariflərindən ibarətdir.

1.7. **Əmanətin yerləşdirilməsi haqqında ərizə (Ərizə)** – bu Şərtlərin **2 №-li Əlavəsində** nəzərdə tutulmuş forma üzrə tərtib edilən, Əmanətçinin bu Şərtlərə qoşulmaqla Ərizədə göstərilən parametrlərlə müəyyən növdə Əmanətin Bankda yerləşdirilməsi barədə Bankla Müqavilə bağlamaq təklifini ifadə edən, kağız daşıyıcıda, bu Şərtlərlə nəzərdə tutulduğu halda isə elektron formada təqdim olunan yazılı müraciəti (ofertası). Ərizənin elektron formada təqdim edilməsi "XalqOnline" mobil bankinq tətbiqi (Mobil tətbiq) vasitəsilə həyata keçirilir.

1.8. **Ərizənin aksept edilməsi** – Ərizənin Mobil tətbiq vasitəsilə təqdim olunduğu hallar istisna olmaqla, Bank tərəfindən Əmanətçinin Ərizəsinin Bankın səlahiyyətli şəxsi tərəfindən imzalanması yolu ilə təmin edilməsi;

Ərizə Mobil tətbiq vasitəsilə təqdim edildikdə, Ərizənin Bank tərəfindən aksept edilməsi Əmanətçiyə Mobil tətbiq vasitəsilə bu Şərtlərin 2.6-cı bəndində qeyd olunan məlumatların təqdim edilməsində ifadə olunur.

1.9. **Bankda yerləşdirilən əmanətlərin növləri üzrə xüsusi şərtlər (Xüsusi şərtlər)** – Hər bir əmanət növü üzrə əmanətin müddətini, valyuta(sı)(ları)nı, əmanət üzrə illik faiz dərəcəsini, əmanətin minimal və/və ya maksimal məbləğinə dair tələbləri, əmanət üzrə faizlərin ödənilməsi müddətləri və qaydasını, Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda tətbiq edilən illik faiz dərəcələrini, əmanətin prolonqasiya şərtlərini və hər bir əmanət növü üzrə

digər fərdi şərtləri müəyyən edən bu Şərtlərin **1 №-li Əlavəsi**;

1.10. **Faizlərin kapitalizasiyası** – Əmanət məbləğinə hesablanan faizlərin Əmanətin əsas məbləğinə əlavə olunması;

1.11. **Əmanətin prolonqasiyası (uzadılma)** – prolonqasiya tarixinə Bankda mövcud olan (Xüsusi şərtlərdə göstərilmiş) eyni növ Əmanətin şərtləri ilə, Əmanətin ilkin yerləşdirmə müddətinə barabər olan yeni müddətə Əmanət müqaviləsinin yenidən bağlanması (uzadılması);

1.12. **ƏL/TMM qanunvericiliyi** – "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – "ƏL/TMM" Qanunu) və bu Qanuna müvafiq olaraq və onun icrasını təmin etmək məqsədilə qəbul edilmiş digər normativ-hüquqi və normativ xarakterli aktlar, o cümlədən yuxarıda qeyd edilmiş normativ-hüquqi və normativ xarakterli aktların tələblərinin icrasını təmin etmək məqsədilə Bankın qəbul etdiyi daxili normativ aktları;

1.13. **Bankın saytı** – İnternet şəbəkəsində www.xalqbank.az ünvanı üzrə Bankın rəsmi saytı;

1.14. **Bankın tarifləri** – Əmanətlərin yerləşdirilməsinə, habelə əmanətlə bağlı əməliyyatların aparılmasına görə Bank tərəfindən müəyyən edilmiş xidmət haqları (Bankın tarifləri Bankın saytında yerləşdirilir).

1.15. **Əmanət üzrə ilkin haqqın məbləği (bundan sonra "İlkin haqq")** – Əmanət müqaviləsinin bağlandığı tarixdə Xüsusi şərtlərə uyğun olaraq artırma imkanı nəzərdə tutulan müvafiq növdə Əmanətdə yerləşdirilməsi üçün Əmanətçi tərəfindən Əmanət hesabına köçürülməli olan pul vəsaitlərinin minimal məbləği;

1.16. **Əmanətin maksimal məbləği** – Əmanət müqaviləsinin bağlandığı/uzadıldığı tarixə Xüsusi şərtlərlə müəyyən edilmiş Əmanətçinin Bankdakı Əmanətə yerləşdirə biləcəyi pul vəsaitlərinin maksimal məbləği. Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, faizlərin kapitalizasiyasını nəzərdə tutan əmanətlər üzrə Əmanətin maksimal məbləğində kapitalizasiya olunmuş faiz məbləği nəzərə alınır;

1.17. **Əmanətin minimal məbləği** – Əmanət müqaviləsinin bağlandığı/uzadıldığı tarixə Xüsusi şərtlərlə müəyyən edilmiş Əmanətçinin Bankdakı Əmanətə yerləşdirməli olan pul vəsaitlərinin minimal məbləği;

1.18. **Əlavə haqqın maksimal/minimal məbləği** – Xüsusi şərtlərlə Əmanətin artırılması imkanı nəzərdə tutulduğu halda, Əmanət müqaviləsinin bağlandığı/uzadıldığı tarixə qüvvədə olan Xüsusi şərtlərlə müəyyən edilmiş Əmanətçinin Bankdakı Əmanətə əlavə haqq kimi yerləşdirə biləcəyi pul vəsaitlərinin maksimal/minimal məbləği;

1.19. **Cari hesab** – Əmanət üzrə pul vəsaitlərinin Əmanət hesabına mədaxil və həmin hesabdan məxaric edilməsi/silinməsi, əmanət üzrə hesablanmış faizlərin köçürülməsi üçün (Ərizədə Əmanətçi tərəfindən faizlərin ödənilməsi üçün Cari hesab seçildikdə) Əmanətçinin Ərizədə göstərdiyi cari hesab;

1.20. **"XalqOnline" rəqəmsal platforması (Platforma)** – Tərəflər arasında internet şəbəkəsi vasitəsilə elektron sənədlərin və məlumatların mübadiləsini təmin edən məsafədən bank xidmətlərinin göstərilməsi sistemi. Platforma "XalqOnline" mobil bankinq tətbiqi və "XalqOnline" internet bankinq tətbiqindən ibarətdir;

1.21. **Digital sabit/artırıla bilən əmanət (bundan sonra - Digital əmanət)** – Mobil tətbiq vasitəsilə əmanətin yerləşdirilməsinə, Xüsusi şərtlərlə ayrı qayda nəzərdə tutulmadıqda Mobil tətbiq vasitəsilə idarə olunmasına - əmanətin məbləğinin əlavə haqlar hesabına artırılmasına (bu imkanı nəzərdə tutan Digital əmanətin müvafin növü üzrə) və Müqavilənin vaxtından əvvəl ləğvinə imkan verən əmanət növü/növləri.

1.2. Bu Şərtlərdə istifadə edilən digər anlayışlar Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 2. *ÜMUMİ MÜDDƏALAR*

2.1. Bu Şərtlər fiziki şəxslər tərəfindən Bankda əmanətlərin yerləşdirilməsi qaydasını, Əmanət üzrə faizlərin hesablanması və ödənilməsi qaydasını müəyyən edir, habelə əmanətlərin yerləşdirilməsi ilə bağlı Tərəflər arasında yaranan digər münasibətləri tənzimləyir.

2.2. Bu Şərtlər Bankla fiziki şəxslər arasında bağlanan Əmanət müqaviləsinin standart müddəalarını müəyyən edir. Bu Şərtlərin mətni Bankın saytında yerləşdirilməklə Əmanətçiyə təqdim edilir.

2.3. Yerləşdirilən Əmanətin növü, məbləği, valyutası, Əmanət üzrə illik faiz dərəcəsi, Əmanətin müddəti, onun yerləşdirilməsi və qaytarılması tarixləri (Əmanətin yerləşdirilməsi üçün Mobil tətbiq vasitəsilə müraciətin edildiyi hal istisna olmaqla), Əmanətçinin (Əmanət üçüncü şəxsin adına yerləşdirildikdə isə həmin şəxsin) adına Bankda açılmış cari hesab və Əmanət hesabının nömrəsi (Əmanətin yerləşdirilməsi üçün Mobil tətbiq vasitəsilə müraciətin edildiyi hal istisna olmaqla), Əmanət üzrə faizlərin ödənilməsi müddətləri (Əmanətin yerləşdirilməsi üçün Mobil tətbiq vasitəsilə müraciətin edildiyi hal istisna olmaqla), Əmanət üzrə hesablanmış faizlərin cari və ya kart hesabına köçürülməsi barədə və bu Şərtlərə müvafiq olaraq digər şərtlər Ərizədə (Əlavə № 2) qeyd olunur.

Əmanətin yerləşdirilməsi üçün Mobil tətbiq vasitəsilə müraciət edildikdə, əmanətin yerləşdirilməsi şərtlərinə dair məlumatlar Əmanətçi tərəfindən Mobil tətbiqdə qeyd edilir/seçilir və bunun əsasında Ərizə avtomatik olaraq Mobil tətbiq vasitəsilə formalaşdırılır.

2.4. Bankda hər dəfə Əmanətin yerləşdirilməsi üçün Əmanətçi tərəfindən Banka kağız daşıyıcıda 2 (iki) nüsxədə olmaqla öz əl imzası ilə imzalanmış və ya elektron formada «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə cavab verən gücləndirilmiş elektron və ya rəqəmsal imza ilə təsdiq edilmiş Ərizə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Bankın daxili normativ aktları ilə tələb olunan sənədlər və məlumatlar təqdim edilir. Müqavilənin bağlanması üçün Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Bankın daxili normativ aktları ilə tələb olunan sənədlər və məlumatlar Əmanətçi tərəfindən əvvəl Banka təqdim edildiyi və Əmanətçi tərəfindən Banka yuxarıda qeyd edilmiş Ərizə ilə müraciət edildiyi ana həmin sənəd və məlumatlar aktual olduğu halda Bank Əmanətçidən həmin sənəd və məlumatların təkrar təqdim edilməsini tələb etməyə bilər. Əmanətçi tərəfindən Əmanət özünün, Xüsusi şərtlərdə nəzərdə tutulmuş hallarda isə həmçinin üçüncü şəxsin adına yerləşdirilə bilər.

2.5. Əmanətçi tərəfindən seçdiyi növdə Əmanətin yerləşdirilməsi haqqında ərizənin Banka təqdim edilməsi bu Şərtlərlə, Bankın tarifləri ilə tanış və onlarla razı olduğunu və bu Şərtləri bütövlükdə qəbul etdiyini bildirir, lakin Bankla Müqavilənin avtomatik olaraq bağlanması demək deyil.

2.6. Bankın Əmanətçiyə Müqaviləni bağlamaqdan imtina etdiyi hallar istisna olmaqla, Müqavilə Bank tərəfindən Əmanətçinin ƏL/TMM qanunvericiliyinin tələblərinə müvafiq olaraq eyniləşdirilməsi və verifikasiyasının aparılmasından və Ərizənin aksept edilməsindən sonra bağlanmış hesab olunur.

Bank tərəfindən Ərizənin aksept edilməsi, Bank tərəfindən Əmanətçiyə (Əmanət üçüncü şəxsin xeyrinə yerləşdirildikdə isə həmin şəxsə) Əmanət hesabının açılmasında, Ərizə kağız daşıyıcıda təqdim edildikdə açılan Əmanət hesabının rekvizitləri, Əmanətin yerləşdirilməsi (Müqavilənin bağlanması) və qaytarılması tarixləri, Ərizənin (Müqavilənin) nömrəsi barədə məlumatın Ərizədə qeyd edilməsində, Ərizə elektron formada təqdim edildikdə isə bu abzasda nəzərdə tutulan məlumatlarla yanaşı, əmanət üzrə faizlərin ödənilməsi müddətlərini də ehtiva edən bildirişin Mobil tətbiq vasitəsilə Əmanətçiyə təqdim edilməsində ifadə olunur. Ərizənin aksept edilməsi tarixi Müqavilənin bağlandığı tarix hesab olunur, bu şərtlə ki, Əmanətçi tərəfindən Əmanət məbləği həmin tarixdə Bankda yerləşdirilmiş olsun. Bu andan etibarən Əmanətçi Müqavilənin tərəfi olur. Bank tərəfindən Ərizənin aksept edilməsi üzrə qərar Bankın daxili normativ aktlarına müvafiq olaraq öz mülahizəsinə əsasən müstəqil

şəkildə qəbul edilir.

2.7. Bağlanmış Əmanət müqaviləsinə müvafiq olaraq Bank Əmanətçidən qəbul edilmiş pul vəsaitini (Əmanəti) Müqavilə ilə nəzərdə tutulmuş şərtlərlə və qaydada Əmanətçiyə qaytarmağı və Əmanət üzrə hesablanmış faizləri sonuncuya ödəməyi öz öhdəsinə götürür.

2.8. Əmanətçi tərəfindən imzalanmış və Bank tərəfindən aksept edilmiş Ərizənin Bankda mövcud olması Tərəflər arasında Müqavilənin bağlanması faktını və Müqavilənin şərtlərinin Tərəflər üçün etibarlılığını təsdiq edən sübut hesab olunur.

2.9. Xüsusi şərtlərdə nəzərdə tutulmuş halda Əmanətçi Əmanəti Banka üçüncü şəxsin adına yerləşdirdikdə, xeyrinə əmanət qoyulan şəxs bu hüquqlara əsaslanan ilk tələbini Banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla Banka bildirdiyi andan qanunvericiliklə və Müqavilə ilə nəzərdə tutulmuş Əmanətçi hüquqlarını qazanır, eləcə də Əmanətçinin Müqavilə üzrə öhdəliklərini daşıyır. Əmanətçi Əmanət barəsində qanunvericilik və Müqavilə ilə nəzərdə tutulmuş Əmanətçi hüquqlarından, xeyrinə əmanət qoyulan şəxs həmin hüquqlardan istifadə etmək niyyətini Banka bildirənədək istifadə edə bilər.

2.10. Bank «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının 29.12.2006-cı il tarixli 226-İİİQ №-li qanununa (bundan sonra «Qanun» adlandırılacaq) müvafiq olaraq fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortası sisteminin və bu məqsədlə yaradılmış Əmanətlərin Sığortalanması Fondunun 30.07.2007-ci il tarixdən iştirakçısıdır (Şəhadətnamə № 1). Əmanətçi tərəfindən Bankda yerləşdirilmiş Əmanət qeyd edilən Qanunla müəyyən edilmiş qaydada, miqdarda və şərtlərlə sığortalanır.

Əmanətlərin sığortalanması, qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsi şərtləri və qaydası, Fondun fəaliyyəti ilə bağlı elanların verildiyi və bildirişlərin dərc edildiyi kütləvi informasiya vasitələri haqqında məlumat bu Şərtlərin 9-cu maddəsində qeyd edilir.

2.11. Bank tərəfindən Əmanətçiyə Müqavilə ilə nəzərdə tutulmuş məsafədən bank xidmətləri Tərəflər arasında bağlanan “XalqOnline” rəqəmsal platforması vasitəsilə bank əməliyyatlarının aparılmasına dair müvafiq müqavilə əsasında göstərilir.

## *3. ƏMANƏT HESABININ AÇILMASI VƏ APARILMASI, ƏMANƏT MƏBLƏĞİNİN ƏMANƏT HESABINDA YERLƏŞDİRİLMƏSİ VƏ HƏMİN HESABDAN ÇIXARILMASI (SİLİNMƏSİ) QAYDASI. ƏMANƏT ÜZRƏ FAİZLƏRİN HESABLANMASI VƏ ÖDƏNİLMƏSİ QAYDASI*

3.1. Bu Şərtlərin 2.6-cı bəndində qeyd edilmiş Əmanət hesabı Bank tərəfindən Əmanətçinin ƏL/TMM qanunvericiliyinin tələblərinə müvafiq olaraq eyniləşdirilməsi və verifikasiyasının aparılması və bu Şərtlərin 2.4-cü bəndində qeyd edilmiş sənəd və məlumatların Əmanətçi tərəfindən təqdim edilməsi şərtilə Əmanətin qəbul edilməsi və Əmanət üzrə əməliyyatların uçotu üçün açılır.

Bu bəndin birinci abzasında qeyd edilən sənəd və məlumatlarla yanaşı Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1390-IVQ №-li Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə» Sazişin tələblərinə əsasən Bankın hesabat verən maliyyə institutu kimi ABŞ-ın vergi mükəlləfiyyətli hüquqi və fiziki şəxsləri, habelə iştirakçı olmayan maliyyə institutları barədə həmin Sazişlə nəzərdə tutulmuş məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vasitəsilə ABŞ-ın səlahiyyətli dövlət orqanına ötürmək öhdəliyini daşıdığını nəzərə alaraq, Əmanətçi (Əmanət üçüncü şəxsin xeyrinə yerləşdirildikdə isə həmin şəxs) ona açılan Əmanət hesabının ABŞ-ın hesabat verilməli hesabı olub-olmadığının müəyyənləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada «Özünüqiymətləndirmə anketi»ni (bundan sonra «Anket» adlandırılacaq) və Anketin

cavablandırılmasından (Əmanətçinin/Əmanət üçüncü şəxsin xeyrinə yerləşdirildikdə isə həmin şəxsin ABŞ şəxsi olub-olmamasından) asılı olaraq W-9 və ya IRS W-8 BEN formasını doldurmaqla Banka təqdim edir. Əmanətçi (Əmanət üçüncü şəxsin xeyrinə yerləşdirildikdə isə həmin şəxs) Anket, W-9 və IRS W-8 BEN formaları ilə Bankın saytında tanış ola bilər.

Bu bəndin ikinci abzasında göstərilən Anketdən həmçinin «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma» (bundan sonra «Çoxtərəfli Razılaşma») çərçivəsində tətbiq edilən Ümumi Hesabatlılıq Standartına (Common Reporting Standard – CRS) uyğun məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə istifadə olunur.

3.2. Əmanət hesabı Bank tərəfindən Əmanətçinin Ərizədə göstərdiyi valyutada açılır. Əmanət hesablarının açılması mümkün olan valyutaların siyahısı Bank tərəfindən Xüsusi şərtlərdə birtərəfli qaydada müəyyən edilir. Əmanət hesabının nömrəsi Bank tərəfindən birtərəfli qaydada müəyyən edilir və Müqavilənin bağlanması zamanı Bank tərəfindən Ərizədə (Ərizə Mobil tətbiq vasitəsilə təqdim olunduqda isə bu barədə Əmanətçiyə həmin Mobil tətbiq vasitəsilə təqdim edilən müvafiq bildirişdə) göstərilir.

3.3. Əmanət üzrə pul vəsaitlərinin Əmanət hesabına mədaxil edilməsi Əmanətçinin Cari hesabından, bu Şərtlərin 3.7-ci bəndində nəzərdə tutulmuş hallarda isə Cari hesabından, Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabından və ya müvafiq əmanət növü üzrə Xüsusi şərtlərlə nəzərdə tutulduqda valyutasından asılı olmayaraq istənilən kart hesabından köçürmə yolu ilə həyata keçirilir.

Bununla Əmanətçi Banka əlavə ödəniş sərəncamları vermədən, Müqavilənin bağlandığı tarixdə Əmanət məbləğində pul vəsaitlərinin Cari hesabından Əmanət hesabına köçürülməsini tapşırır.

3.4. Müqavilənin bağlanması tarixinə Əmanətçinin Cari hesabında Əmanətə yerləşdirilməsi üçün nəzərdə tutulmuş vəsaitlər mövcud olmadıqda və ya Ərizədə göstərdiyi məbləğdən az olduqda, belə vəsaitlər Əmanət hesabına köçürülmür, Əmanət müqaviləsi isə bağlanmamış sayılır. Bu Əmanət üzrə Əmanət hesabı bağlanır.

3.5. Xüsusi şərtlərlə müvafiq Əmanət növü üzrə bağlanması nəzərdə tutulan müqavilələrin (yerləşdirilməsi nəzərdə tutulan əmanətlərin) maksimal sayına məhdudiyyətlər tətbiq oluna, Əmanət məbləğinin artırılmasının qeyri-mümkün olması və ya Əmanət məbləğinin əlavə haqlar hesabına artırılmasının mümkün olması müəyyən edilə bilər.

3.6. Xüsusi şərtlərlə Əmanətin artırılması imkanı nəzərdə tutulduqda, əlavə haqqın məbləği əlavə haqqın minimal/maksimal məbləği və/və ya Əmanətin maksimal məbləği ilə məhdudlaşdırıla bilər. Xüsusi şərtlərlə Bank tərəfindən Əmanət üzrə əlavə haqların qəbulunun, Əmanətin yerləşdirilmə müddətinin bitmə tarixinə qalan Xüsusi şərtlərlə müəyyən edilmiş müddətdən əvvəl dayandırılması, Əmanət məbləğinin artırılması üzrə əməliyyatların sayı, habelə Əmanət məbləğinin artırılması üzrə digər məhdudiyyətlər nəzərdə tutula bilər.

3.7. Əmanətin əlavə haqların hesabına artırılması (Xüsusi şərtlərlə nəzərdə tutulduqda) üçün nəzərdə tutulmuş vəsaitlər Əmanətçinin Banka verdiyi ödəniş sərəncamları əsasında Cari hesabından, Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabından və ya müvafiq əmanət növü üzrə Xüsusi şərtlərlə nəzərdə tutulduqda valyutasından asılı olmayaraq istənilən kart hesabından köçürmə yolu ilə Əmanət hesabına mədaxil edilir.

3.8. Qanunla və ya Müqavilə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, Bank Əmanətçinin Əmanət hesabında olan pul vəsaitləri üzərində sərəncam vermək hüququnu məhdudlaşdıra bilməz. Qüvvədə olan qanunvericiliklə və ya Müqavilə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, Əmanət hesabı üzrə məxaric əməliyyatları Əmanətçinin ödəniş sərəncamları əsasında və yalnız nağdsız qaydada həmin hesabdan müvafiq pul vəsaitlərinin Əmanətçinin Cari hesabına və ya Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabına köçürülməsi yolu ilə aparıla bilər.

3.9. Əmanətçi Əmanət müddəti bitənədək Əmanəti Əmanət hesabından bu Şərtlərin 3.8-ci

bəndində nəzərdə tutulmuş qaydada tam məbləğdə geri götürə bilər. Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, Əmanətin Əmanət hesabından hissə-hissə götürülməsinə (Əmanət məbləğinin qismən azaldılmasına) icazə verilmir.
3.10. Xüsusi şərtlərlə nəzərdə tutulmuş hallar istisna olmaqla, Əmanətçi tərəfindən Əmanətin tam və ya qismən Əmanət hesabından geri götürülməsi və ya Əmanət hesabı üzrə digər məxaric əməliyyatlarının aparılması Əmanət hesabının bağlanması ilə Müqavilənin vaxtından əvvəl xitam edilməsinə və bunun bu Şərtlərin 3.17-ci bəndi ilə müəyyən edilmiş nəticələrinin tətbiq edilməsinə səbəb olur. Xüsusi şərtlərdə Müqaviləyə vaxtından əvvəl xitam verilmədən Əmanət hesabı üzrə məxaric əməliyyatların aparılmasının mümkünlüyü nəzərdə tutulduqda, məxaric əməliyyatlarının aparılmasına icazə verilən məbləğin miqdarı, bir məxaric əməliyyatı üzrə məbləğin minimal və/və ya maksimal miqdarı, məxaric əməliyyatlarının sayı, habelə məxaric əməliyyatlarının aparılması üzrə digər məhdudiyyətlər Xüsusi şərtlərdə müəyyən edilə bilər.
3.11. Bank Əmanət hesabı üzrə mədaxil və məxaric əməliyyatlarının aparılması, emalı və əks etdirilməsi üzrə aşağıdakı qaydanı müəyyən edir:
3.11.1. Əmanət hesabı üzrə nağdsız mədaxil əməliyyatları:
- Əmanətin Bankda yerləşdirilməsi və ya Bankda yerləşdirilmiş Əmanətin artırılması üçün nəzərdə tutulmuş pul vəsaitləri Əmanətçinin Cari hesabından, Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabından və ya müvafiq əmanət növü üzrə Xüsusi şərtlərlə nəzərdə tutulduqda valyutasından asılı olmayaraq istənilən kart hesabından Əmanət hesabına köçürülməlidir. Əmanətçi tərəfindən Banka Əmanət hesabına vəsaitlərin köçürülməsi haqqında bu Şərtlərin 3.3-cü və ya 3.7-ci bəndləri ilə nəzərdə tutulmuş qaydada verilmiş ödəniş sərəncamlarının Bank tərəfindən icrası Bankla Əmanətçi arasında bağlanmış müvafiq bank hesabı müqavilə(si)(ləri)ndə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir. Bu abzasda göstərilmiş cari hesablarının birindən Əmanət hesabına mədaxil edilməsi üçün daxil olmuş pul vəsaitləri daxil olduğu əməliyyat günündə Əmanət hesabına mədaxil edilir.
3.11.2. Əmanət hesabı üzrə nağdsız məxaric əməliyyatları:
Qanunvericiliklə nəzərdə tutulmuş hallardan və prolonqasiya şərtini nəzərdə tutmayan Müqavilə üzrə Əmanət müddətinin bitdiyi hallardan başqa Əmanət hesabı üzrə vəsaitlərin nağdsız silinməsi Bankın müəyyən etdiyi formada vəsaitlərin köçürülməsi haqqında Əmanətçinin ödəniş sərəncamı əsasında aparılır. Köçürmə haqqında lazımi qaydada tərtib edilmiş ödəniş sərəncamı əməliyyat günü (əməliyyat gününün davamlılığı Bank tərəfindən müstəqil şəkildə müəyyən edilir) ərzində Banka daxil olduqda, icraya qəbul edilir və icraya qəbul edildiyi vaxtdan növbəti iş günündən gec olmayaraq Bank tərəfindən icra edilir. Köçürmə haqqında lazımi qaydada tərtib edilmiş ödəniş sərəncamı əməliyyat gününün bitməsindən sonra Banka daxil olduqda növbəti əməliyyat günündə icraya qəbul edilir və icraya qəbul edildiyi vaxtdan növbəti iş günündən gec olmayaraq Bank tərəfindən icra edilir.
Əmanətçi Bankla prolonqasiya şərtini nəzərdə tutmayan Əmanət müqaviləsini bağladığıhalda, Əmanətçi bununla həmin Müqavilə üzrə Əmanət müddəti bitdikdən sonra Əmanət məbləğində pul vəsaitlərinin Əmanət hesabından Cari hesabına köçürülməsi barədə Banka tapşırıq (ödəniş sərəncamı) vermiş sayılır. Bu zaman Əmanətçi tərəfindən Banka əlavə ödəniş sərəncamının verilməsi tələb olunmur. Bank bu tapşırığı Əmanət müddətinin bitdiyi tarixdən növbəti iş günündən gec olmayaraq icra edir.
3.12. Bank Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə Əmanətçini, sonuncunun Banka etdiyi müraciət əsasında bu Şərtlərin 6.1-ci bəndində nəzərdə tutulmuş qaydada Əmanət hesabı üzrə çıxarışı Əmanətçiyə təqdim etməklə məlumatlandırır. Əmanətçi tərəfindən ayda bir dəfə Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə Bankdan müvafiq çıxarışın əldə edilməsi xidmət haqqı tutulmadan həyata keçirilir. Bank tərəfindən Əmanətçinin müraciəti üzrə sonuncuya təqdim edilən Əmanət hesabı üzrə çıxarışda olan məlumatlar qüvvədə olan

qanunvericilikdə nəzərdə tutulandan az olmayan həcmdə təqdim edilir.

Əmanətçi, onun müraciəti əsasında bu Şərtlərin 6-cı maddəsində müəyyən edilmiş qaydada Bank tərəfindən məlumatlandırıldığı andan 6 (altı) ay ərzində Banka yazılı pretenziya verməklə müvafiq əməliyyatı mübahisələndirə bilər. Əmanətçi qeyd edilən müddətdə Banka müvafiq əməliyyat üzrə yazılı pretenziya vermədikdə, həmin əməliyyatın düzgünlüyü təsdiq olunmuş hesab edilir və bu əməliyyat sonradan Əmanətçi tərəfindən mübahisələndirilə bilməz.

3.13. Bu Şərtlərin 3.9-cu bəndində və 3.11.2-ci yarımbəndinin ikinci abzasında nəzərdə tutulmuş hallarda Əmanət məbləği tam və ya qismən Əmanətçinin Cari hesabına və ya Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabına köçürülməklə Əmanətçiyə qaytarıldıqda, həmin məbləğdə pul vəsaitlərinin Əmanətçi tərəfindən Bankdakı müvafiq cari hesabından nağdlaşdırılmasına görə Əmanətçidən Bankın tariflərinə müvafiq olaraq komissiya tutula bilər.

3.14. Əmanət məbləğinə faizlərin hesablanması, müvafiq məbləğin Əmanət hesabına mədaxil edildiyi günün ertəsi günündən Əmanətin Əmanətçiyə qaytarılmasından və ya Əmanət məbləğinin başqa əsaslarla Əmanət hesabından silinməsindən əvvəlki günədək həyata keçirilir. Bu zaman əsas kimi ayda 30 gün, ildə isə 360 gün götürülür.

Xüsusi şərtlərlə Əmanət məbləğinin əlavə haqlar hesabına və ya Əmanət üzrə hesablanmış faizlərin kapitalizasiyası nəticəsində artırılması nəzərdə tutulduqda, bu bənddə nəzərdə tutulmuş faizlərin hesablanması qaydası həmçinin əlavə haqlara və kapitalizasiya edilən faiz məbləğlərinə də şamil edilir.

3.15. Əmanət üzrə hesablanmış faizlər müvafiq əmanət növü üzrə Xüsusi şərtlərdə müəyyən edilmiş şərtlərdən və bu şərtlər çərçivəsində Əmanətçinin Ərizədə etdiyi seçimdən asılı olaraq aşağıdakı qaydada ödənilə bilər (Xüsusi şərtlərlə ayrı qayda müəyyən edilmədiyi təqdirdə):

3.15.1. Faizlərin ödənilməsi dövriliyi üzrə şərtlər:

- hər ay və ya Əmanət müddətinin sonunda Əmanətin qaytarılması tarixində.

3.15.2. Faizlərin köçürülməsi qaydasına dair şərtlər:

- Əmanət üzrə hesablanmış faizlər Əmanətçinin Cari hesabına və ya kart hesabına köçürülməklə ödənilir. Əmanət üzrə faizlərin ödənilməsi və onlardan istifadə edilməsi üçün Əmanətçiyə kart hesabı açıldıqda, həmin hesab üzrə ödəniş kartı Bank tərəfindən Əmanətçiyə pulsuz təqdim edilir. Əmanətçiyə kart hesabının açılması, ödəniş kartının buraxılması və ondan istifadə edilməsi şərtləri və qaydası Bankla Əmanətçi arasında bağlanan ASC "Xalq" Bankının ödəniş kart(lar)ının buraxılması və on(lar)a xidmət göstərilməsi haqqında müqavilə ilə müəyyən edilir.

3.16. Əmanət məbləği qismən geri götürüldükdə və ya digər əsaslar üzrə Əmanət hesabından qismən silindikdə (Xüsusi şərtlərlə Əmanətin qismən azaldılması imkanı nəzərdə tutulduqda və həmin şərtlərlə bu növ Əmanət üzrə müəyyən edilmiş əmanətin minimal məbləğinə/qalığına dair tələbinin pozulmaması şərtilə) Əmanət məbləğinin həmin hissəsi üzrə hesablanmış faizlər bu Şərtlərin 3.15.2-ci yarımbəndində nəzərdə tutulmuş qaydada Əmanət məbləğinin qismən qaytarılması və ya Əmanət hesabından qismən silinməsi tarixində Əmanətçiyə ödənilir. Bu halda həmin faizlərin hesablanması üzrə hesabat dövrü faizlər üzrə sonuncu hesablaşma tarixindən Əmanətin müvafiq hissəsinin qaytarıldığı və ya digər əsaslar üzrə Əmanət hesabından silindiyi tarixdən əvvəlki günədək olan müddət hesab olunur.

3.17. Əmanət Əmanətçi tərəfindən vaxtından əvvəl tələb edildikdə, Xüsusi şərtlərlə Əmanətin qismən azaldılması imkanı nəzərdə tutulmadığı halda Əmanət hesabı üzrə digər məxaric əməliyyatları aparıldıqda və ya Xüsusi şərtlərlə Əmanətin qismən azaldılması imkanı nəzərdə tutulduğu halda həmin şərtlərə müvafiq olaraq Əmanətin Ərizədə nəzərdə tutulmuş minimal qalıqdan aşağı enməsinə səbəb olan Əmanətin hər-hansı bir hissəsi geri götürüldükdə və ya hər-hansı digər əsasla Əmanət hesabından silindikdə, Əmanətə faizlər pul vəsaitlərinin Əmanətdə olduğu faktiki müddət üçün müvafiq əmanət növü üzrə Xüsusi şərtlərdə müəyyən edilmiş illik faiz dərəcəsi ilə yenidən hesablanır və bu Şərtlərin 3.15.2-ci yarımbəndində nəzərdə tutulmuş

qaydada Əmanətin Əmanətçiyə qaytarılması və ya Əmanət hesabından digər əsaslar üzrə silinməsi tarixində Əmanətçiyə ödənilir. Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği ən geci 3 (üç) iş günü ərzində Əmanətçi tərəfindən Banka qaytarılır.

## 4. *TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ*

4.1. ***Bank aşağıdakıları öz öhdəsinə götürür:***

4.1.1. Əmanətçi ilə bağlanmış Müqaviləyə müvafiq olaraq Əmanətçinin (Əmanət üçüncü şəxsin adına yerləşdirildikdə isə həmin şəxsin) adına Əmanət hesabı açmaq və Əmanət üzrə qəbul edilmiş pul vəsaitini həmin hesaba daxil etmək;

4.1.2. Bu Şərtlərin 4.2.2-ci yarımbəndində nəzərdə tutulmuş hal istisna olmaqla, Əmanət müddəti ərzində Əmanətçinin ilk tələbi ilə Əmanət məbləğinin ¼ (dörddə bir) hissəsini dərhal, qalan hissəsini isə 5 (beş) bank günü müddətindən gec olmayaraq, Əmanətin müddəti bitdiyi halda isə onun bitdiyi gündə Əmanət məbləğini tam olaraq Ərizədə göstərilmiş Cari hesaba köçürmə yolu ilə Əmanətçiyə qaytarmaq.

Əmanət (onun hissəsi) Əmanətçinin və ya üçüncü şəxslərin Bank qarşısında hər hansı öhdəliklərinin icrasının girov təminatı qismində çıxış etdiyi halda, Bank tərəfindən Əmanət məbləğinin (onun hissəsinin) qaytarılması öhdəliyinin icrası qaydası və müddətləri müvafiq girov müqaviləsi ilə müəyyən olunur;

4.1.3. Əmanət üzrə faizləri Müqavilə ilə müəyyən edilmiş miqdarda, qaydada və şərtlərlə ödəmək;

4.1.4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, Müqavilənin bağlanması və icrası zamanı Bank tərəfindən əldə edilmiş fərdi məlumatlara dair konfidensiallıq rejiminə riayət etmək;

4.1.5. Əmanətin və Əmanət hesabı üzrə aparılan əməliyyatların, Əmanətçi barədə məlumatların sirrini qorumaq və bu barədə məlumatları üçüncü şəxslərə yalnız qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada təqdim etmək;

4.1.6. Bu Şərtlərlə nəzərdə tutulmuş qaydada Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə Əmanətçinin müraciəti əsasında sonuncunun məlumatlandırılmasını təmin etmək, habelə Əmanətçiyə müvafiq sənəd və məlumatları təqdim etmək;

4.1.7. Əmanətçi kağız daşıyıcıda tərtib edilmiş Əmanətin yerləşdirilməsi haqqında Ərizə ilə və ya bu Şərtlərin 4.1.8-ci yarımbəndində nəzərdə tutulmuş halda Bankın filialına müraciət etdikdə, Əmanətçiyə xidmət göstərən Bankın mütəxəssisi vasitəsilə bu Şərtlərin 4.3.3-cü yarımbəndində göstərilən sənədlərin doldurulma qaydasını Əmanətçiyə tam və aydın şəkildə izah etmək, eləcə də zəruri olduğu hallarda həmin sənədlərin doldurulmasında sonuncuya köməklik göstərmək;

4.1.8. Əmanətçi elektron formada tərtib edilmiş Əmanətin yerləşdirilməsi haqqında Ərizə ilə Banka Mobil tətbiq vasitəsilə müraciət etdikdə və bu zaman Əmanətçinin əvvəl Banka təqdim etdiyi bu Şərtlərin 4.3.3-cü yarımbəndində göstərilən sənədlərdə qeyd olunan məlumatların Bank tərəfindən yoxlanılması zamanı hər hansı dəqiqləşdirilmələrin aparılmasına zərurət yarandıqda və ya bu məlumatlarda uyğunsuzluqlar aşkar edildikdə, Əmanətçiyə Bankın filiallarının hər-hansı birinə yaxınlaşmaq zərurəti barədə həmin Mobil tətbiq vasitəsilə məlumat vermək. Əmanətçinin müraciət etdiyi Bankın müvafiq filiallında zəruri dəqiqləşdirmələrin aparılmasından, tələb olunduğu halda Əmanətçi barədə Bankda saxlanılan müvafiq məlumatların yenilənməsindən və ya onlarda olan müvafiq uyğunsuzluqların aradan qaldırılmasından sonra Əmanətçi Mobil tətbiq vasitəsilə əmanətin yerləşdirilməsi üçün müvafiq Ərizə ilə yenidən Banka müraciət edə bilər.

4.1.9. Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, Əmanətçi Əmanət müqaviləsinin bir sıra şərtləri ilə bağlı Ərizədə etdiyi seçimin dəyişdirilməsi üçün Banka bu Şərtlərin 3 №-li Əlavəsi

ilə müəyyən edilmiş ərizə ilə müraciət etdikdə və Bank tərəfindən həmin ərizə aksept edildikdə Müqaviləyə edilmiş dəyişikliklərdən irəli gələn Bankın öhdəliklərinin icrasını təmin etmək;
4.1.10. Əmanətçidən Müqavilə üzrə aparılmış ödəniş əməliyyatlara dair daxil olmuş şikayətlərə, şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində baxmaq və baxılmanın nəticələri barədə sonuncunu yazılı şəkildə məlumatlandırmaq. Şikayətə baxılması bu müddətdə mümkün olmadıqda, həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə Əmanətçini yazılı şəkildə məlumatlandırmaq.

4.2. ***Bank aşağıdakı hüquqlara malikdir:***
4.2.1. Əmanətçinin istəyinə uyğun olaraq ona və ya onun göstərdiyi digər şəxs(lər)ə Əmanətdəki pul vəsaitlərinin girovu ilə verilmiş/açılmış kredit(lər)/kredit xət(t)(lər)i üzrə Əmanətçi və ya digər şəxs hesablanmış faizlərin və əsas borc məbləğinin ödənilməsini gecikdirdikdə, Əmanətçinin Bank qarşısında müqavilə və/və yaxud digər mülki-hüquqi əsaslardan irəli gələn ödəniş vaxtı keçmiş pul öhdəlikləri mövcud olduqda həmin məbləğləri, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq tutulan vergilərin və digər məcburi ödənişlərin məbləğlərini, Əmanət hesabına səhvən mədaxil edilmiş məbləğləri, Əmanət hesabı üzrə aparılmış əməliyyatlara görə Bankın tariflərində nəzərdə tutulan xidmət haqqı məbləğlərini Əmanət hesabından akseptsiz qaydada silmək.

Əmanətçinin və ya üçüncü şəxslərin yuxarıda göstərilən əsaslardan yaranan öhdəliklərinin təminatı qismində çıxış edən Əmanət məbləği Əmanətçi tərəfindən vaxtından əvvəl götürüldüyü təqdirdə də Bank müvafiq öhdəlik üzrə mövcud borcun tam məbləğdə ödənilməsini qeyd edilən qaydada silinmə əməliyyatı həyata keçirməklə təmin edə bilər.
4.2.2. Əmanəti, onun müddətinin bitməsindən sonra və ya Əmanətçinin ilk tələbi ilə qaytardığı zaman Əmanətin kredit xət(t)(lər)i üzrə istifadə olunmuş vəsaitlərin miqdarına bərabər olan hissəsini kredit xət(t)(lər)i üzrə yaranmış borcun yekun miqdarını müəyyənləşdirmək və həmin borcun ödənilməsini təmin etmək üçün 7 gün (kredit xətti lokal kart vasitəsilə istifadə edildiyi halda) və ya 35 gün (kredit xətti beynəlxalq kart vasitəsilə istifadə edildiyi halda) müddətinə saxlamaq;
4.2.3. Əmanətçinin təqdim etdiyi Anket və ya digər mənbələrdən əldə edilən məlumatlar əsasında Əmanət hesabının ABŞ-ın və ya Çoxtərəfli Razılaşmanı imzalayan dövlətlərin hesabat verilməli hesabı olduğu müəyyən edilərsə, müvafiq dövlətlərarası müqavilədə/sazişdə nəzərdə tutulan məlumatları həmin sənədlərlə müəyyənləşdirilən qaydada səlahiyyətli dövlət orqanına ötürmək;
4.2.4. Əmanətçi bu Şərtlərin 4.3.1-ci yarımbəndində göstərilən sənədlərin və/və ya məlumatların Banka təqdim edilməsindən boyun qaçırdıqda Əmanətçi ilə Müqavilənin bağlanmasından imtina etmək;
4.2.5. Əmanətçinin Əmanət hesabı üzrə pul vəsaitlərin mədaxil/məxaric əməliyyatlarını aşağıdakı hallarda həyata keçirməmək (onların aparılmasından imtina etmək):
- Məxaric əməliyyatının məbləği Əmanətçinin Əmanət hesabında olan Əmanət məbləğini üstələdikdə;
- Məxaric və ya mədaxil əməliyyatı Əmanətçinin Əmanət hesabı üzrə məxaric və ya mədaxil əməliyyatlarının aparılması ilə bağlı bu Şərtlərlə nəzərdə tutulan tələbləri pozduqda;
- Əmanət hesabına mədaxil edilən, yaxud həmin hesabda mövcud olan vəsaitlərin mənbəyi barədə təqdim olunan məlumat və/və ya sənədlərin həqiqiliyinə və ya doğruluğuna dair şübhələr yarandıqda;
- Azərbaycan Respublikasının qanunvericiliyi və bu Şərtlərlə nəzərdə tutulmuş digər hallarda;

4.2.6. Əmanətçi tərəfindən Müqavilənin şərtləri yerinə yetirilmədikdə, ƏL/TMM qanunvericiliyinin tələblərinə müvafiq olaraq Əmanətçi tərəfindən təqdim edilmiş məlumatların və sənədlərin həqiqiliyinin yoxlanılması mümkün olmadıqda, Əmanət hesabı

üzrə mədaxil və ya məxaric əməliyyatının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (çirkli pulların yuyulması), yaxud terrorçuluğun maliyyələşdirilməsi məqsədilə aparılmasına dair şübhələr yarandıqda və ya Əmanətçi bu Şərtlərin 4.2.7-ci yarımbəndinə müvafiq olaraq Bank tərəfindən ondan tələb edilmiş müvafiq məlumatları və/və ya sənədləri Banka təqdim etmədikdə, Əmanətçi "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunu ilə nəzərdə tutulmuş beynəlxalq sanksiyaların və ya xarici dövlətlərin sanksiyalarının tətbiq edildiyi şəxslərin siyahısına düşdükdə Müqavilənin icrasından birtərəfli qaydada tam və ya qismən imtina etmək və ya onun fəaliyyətini tam və ya qismən dayandırmaq, Əmanətçinin Əmanət hesabı üzrə müvafiq əməliyyatın aparılmasına dair ödəniş sərəncamının icrasından imtina etmək. Bu halda Bank, qanunvericiliklə müəyyən olunan hallar istisna olmaqla, təxirəsalınmadan Əmanətçini məlumatlandırır;

4.2.7. Müqavilənin bağlanması üçün bu Şərtlərin 2.4-cü bəndində nəzərdə tutulmuş zəruri sənəd və məlumatlarla yanaşı, Müqavilənin qüvvədə olduğu müddət ərzində Əmanətçinin əlavə eyniləşdirilməsi və verifikasiyası və ya Əmanət hesabı üzrə aparılan hər-hansı əməliyyatın məqsədinin və mahiyyətinin, habelə Əmanət məbləğinin mənbəyinin aydınlaşdırılması üçün əlavə məlumatın əldə edilməsinə zərurət yarandıqda, ƏL/TMM qanunvericiliyinin, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun, digər normativ (o cümlədən Bankın daxili normativ aktlarının) və normativ xarakterli aktların tələblərinə riayət edilməsi məqsədilə Əmanətçidən digər məlumatların və sənədlərin təqdim edilməsini tələb etmək;

4.2.8. ƏL/TMM Qanununda göstərilən hallarda maliyyə monitorinqi orqanının qərarı əsasında Əmanətçinin Əmanət hesabı üzrə əməliyyatların icrasını dayandırmaq, "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş əsaslar mövcud olduqda isə Əmanət hesabında mövcud pul vəsaitlərini dondurmaq;

4.2.9. Əmanət üzrə ödənilən faizlərdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi tutulmasını həyata keçirmək.

4.3. ***Əmanətçi aşağıdakıları öz öhdəsinə götürür:***

4.3.1. Müqavilənin bağlanması üçün Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin və Bankın daxili normativ aktlarının tələblərinə müvafiq olaraq Banka zəruri olan sənədləri, Ərizəni və özü barəsində düzgün olan məlumatları təqdim etmək, Bankın tarifləri ilə nəzərdə tutulduğu halda müvafiq məbləğləri ödəmək;

4.3.2. Şəxsi məlumatlar, ünvanlar, telefon nömrələri də daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, Banka Əmanətçinin eyniləşdirilməsi və verifikasiyası çərçivəsində təqdim edilmiş məlumatlarda dəyişikliklər baş verdikdə, bu dəyişikliklərin baş verməsindən keçən 5 (beş) iş günü ərzində onların baş verməsi faktını təsdiq edən müvafiq sənədləri əlavə etməklə bu barədə Bankı yazılı şəkildə xəbərdar etmək;

4.3.3. Anketi və Anketin cavablandırılmasının nəticələrinə əsasən vergi məqsədləri üçün ABŞ rezidenti və ya vətəndaşı olması müəyyən edildikdə, ABŞ vergi ödəyicisinin nömrəsini əks etdirən IRS W-9 formasını, ABŞ şəxsi olmadıqda isə IRS W-8 BEN formasını müvafiq bəndlər üzrə tam və müfəssəl məlumatlar daxil etməklə doldurmaq və həmin sənədləri kağız daşıyıcıda öz əl imzası ilə və ya Əmanətin yerləşdirilməsi üçün Mobil tətbiq vasitəsilə müraciət etdiyi halda gücləndirilmiş elektron və ya rəqəmsal imza ilə təsdiq etməklə Banka təqdim etmək;

4.3.4. Müqavilənin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 21 fevral 2023-cü il tarixli, 3-21-28/3-6-4/2023 №-li qərarı ilə təsdiq edilmiş "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"a əsasən Əmanətçinin bu və ya digər risk qrupuna aid edilməsindən asılı olaraq müəyyən edilən müddətdə Bankın tələbi ilə Anketi və IRS W-8 BEN formasını (ABŞ rezidenti

və ya vətəndaşı statusuna malik olmadıqda) bu Şərtlərin 4.3.3-cü yarımbəndində göstərilmiş üsullardan biri ilə Banka təqdim etmək;
4.3.5. Əmanət hesabı üzrə əməliyyatların aparılması zamanı Bankın tarifləri ilə nəzərdə tutulduğu halda müvafiq komissiyaları ödəmək;
4.3.6. Əmanət hesabı üzrə aparılmış əməliyyatlar üzrə bütün sənədləri, müvafiq əməliyyatın aparılması tarixindən 6 (altı) ay ərzində saxlamaq və mübahisəli məsələlərin həlli və ya Əmanət hesabı üzrə aparılmış əməliyyatların qanuniliyinin təsdiqi üçün onları Banka ilk tələb üzrə Bank tərəfindən müəyyən edilmiş müddətlərdə təqdim etmək;
4.3.7. Müqavilənin şərtlərinə riayət etmək;
4.3.8. Bank tərəfindən Müqaviləyə və Bankın tariflərinə edilən və Bankın Əmanətçilərə xidmət göstərdiyi sahələrdə olan informasiya lövhələrində və ya Bankın saytında yerləşdirilmiş dəyişikliklərlə müstəqil şəkildə tanış olmaq.

4.4. ***Əmanətçi aşağıdakı hüquqlara malikdir:***
4.4.1. Qüvvədə olan qanunvericiliklə və/və ya Müqavilə ilə nəzərdə tutulmuş şərtlər çərçivəsində öz mülahizəsinə görə Əmanət və hesablanmış faiz məbləği barəsində sərəncam vermək, Xüsusi şərtlərdə nəzərdə tutulduğu halda Müqavilənin tələblərinə əməl edilməklə Əmanət məbləğini artırmaq və ya azaltmaq;
4.4.2. İlk tələbi ilə, habelə Əmanət müddəti bitdikdə Əmanəti bu Şərtlərin 4.1.2-ci yarımbəndində nəzərdə tutulmuş müddəalara riayət etməklə almaq;
4.4.3. Bu Şərtlərin 4.4.1-ci yarımbəndinin müddəaları nəzərə alınmaqla Əmanətə və hesablanmış faiz məbləğinə dair sərəncam verməklə bağlı hərəkətləri həm şəxsən, həm də etibarnamə üzrə nümayəndəsi vasitəsilə (Mobil tətbiq vasitəsilə yerləşdirilmiş əmanətlər üzrə sərəncamlar istisna olmaqla) həyata keçirmək;
4.4.4. Bu Şərtlərlə nəzərdə tutulmuş qaydada Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə Əmanətçinin Banka etdiyi müraciət əsasında ayda bir dəfə aparılmış əməliyyatlara dair Əmanət hesabı üzrə pulsuz çıxarış almaq;
4.4.5. Banka etdiyi müraciət əsasında Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə bu Şərtlərin 6-cı maddəsində müəyyən edilmiş qaydada Bank tərəfindən məlumatlandırıldığı andan 6 (altı) ay müddətindən gec olmayaraq Banka yazılı pretenziya verməklə müvafiq əməliyyatı mübahisələndirmək.

## *5. ƏMANƏTDƏKİ PUL VƏSAİTLƏRİNİN GİROVU İLƏ KREDİTLƏŞMƏYƏ DAİR ŞƏRTLƏR*

5.1. Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, Müqaviləyə əsasən Bankda Əmanəti yerləşdirdiyinə görə Əmanətçinin istəyinə uyğun olaraq ona və ya onun göstərdiyi digər şəxs(lər)ə Əmanətdəki pul vəsaitlərinin girovu ilə maliyyələşmə formasından asılı olaraq müddətli kredit(lər) verilə, bərpa olunmayan və bir və ya bir neçə kredit kartı vasitəsilə bərpa olunan kredit xət(t)(lər)i açıla bilər. Kredit kartı vasitəsilə kredit xət(t)(lər)i açıldığı zaman bir əsas kredit kartı və həmin karta bir əlavə kredit kartı pulsuz, növbəti əsas və əlavə kredit kartları isə müvafiq ödəniş müqabilində verilir.
5.2. Borcalan və Əmanətçinin eyni şəxs və ya sonuncunun yaxın qohumu (əri/arvadı, valideynləri/övladlığa götürənləri, övladları/övladlığa götürülənləri, bacı və qardaşları) olmasından və ya borcalan və Əmanətçi qismində fərqli və bu bənddə nəzərdə tutulmuş qohumluq əlaqəsində olmayan şəxslərin çıxış etməsindən asılı olaraq kredit vəsaitlərindən istifadəyə görə fərqli illik faiz dərəcələri Bankda əmanətdə olan vəsaitlərin girovu ilə verilən kredit bank məhsulunun müvafiq şərtlərinə uyğun olaraq təyin edilir.
5.3. Əsas və həmin karta əlavə kredit kartları vasitəsilə istifadə edilməsi mümkün olan kredit limitinin (onun hissəsinin) məbləği (bundan sonra «istifadə limiti») borcalanın kateqoriyasından (fiziki şəxs, hüquqi şəxs) və buna müvafiq həmin şəxslərə verilən ödəniş

kartlarının növündən asılı olaraq Bankın tarifləri ilə müəyyən olunur. Kredit limitinin məbləği istifadə limitindən çox olduqda, bu Şərtlərin 5.1-ci bəndinin tələblərinə riayət edilməklə borcalana eyni və ya müxtəlif növdən olan bir neçə kredit kartı verilir. Borcalana verilən kredit kartının növü və sayı müvafiq kart üzrə təyin edilən istifadə limitinə uyğun olaraq müəyyənləşdirilir.
5.4. Bankın tarifləri ilə müvafiq növ kredit kartı üzrə müəyyənləşdirilmiş istifadə limitindən artıq limit borcalanın və Əmanətçinin eyni, sonuncunun yaxın qohumu və ya fərqli şəxslər olmasından asılı olaraq borcalanın yazılı müraciətinə və Əmanətçinin yazılı razılığına əsasən Bank tərəfindən qəbul olunmuş müvafiq qərar əsasında təyin oluna bilər.
5.5. Əmanətdəki pul vəsaitlərinin girovu ilə verilən/təqdim edilən kredit(lər)in/kredit xət(t)(lər)i üzrə ümumi limitin minimal və maksimal məbləği, eləcə də kreditləşmə ilə bağlı digər məsələlər Bankın daxili qaydalarına əsasən müəyyən olunur və müvafiq kredit və girov müqavilələrində əks etdirilir.

## *6. ƏMANƏT HESABI ÜZRƏ APARILMIŞ ƏMƏLİYYATLAR BARƏDƏ BANK TƏRƏFİNDƏN MƏLUMATLANDIRMA QAYDASI*

6.1. Əmanət hesabı üzrə aparılmış əməliyyatlar barədə məlumatlandırma Əmanətçinin müraciəti əsasında Əmanət hesabı üzrə çıxarışın sonuncunun Ərizədə və ya bu Şərtlərin 4.3.2-ci yarımbəndinə müvafiq olaraq Banka təqdim etdiyi yazılı xəbərdarlıqda göstərdiyi elektron poçt ünvanına göndərilməsi və ya Platforma vasitəsilə (Platformada belə bir texniki imkan olduğu təqdirdə) və ya kağız daşıyıcıda Əmanətçiyə təqdim edilməsi yolu ilə həyata keçirilir.
6.2. Əmanət hesabı üzrə çıxarış Əmanətçiyə kağız daşıyıcıda təqdim edildikdə Bankın Əmanətçini məlumatlandırmaq vəzifəsi sonuncunun Banka müraciət etdiyi iş günündə Bank tərəfindən tərtib edilmiş çıxarışın Əmanətçiyə təhvil verilməsi anından icra olunmuş sayılır.
6.3. Məlumatlandırma elektron poçt vasitəsilə aparıldıqda Bankın Əmanətçini məlumatlandırmaq vəzifəsi elektron poçt vasitəsilə Əmanət hesabı üzrə çıxarışın alınması anından icra olunmuş sayılır. Elektron poçt vasitəsilə çıxarışın alınması haqqında proqram vasitələri ilə avtomatik qaydada Tərəfə məlumatın verilməsi digər Tərəfdən elektron poçt vasitəsilə cavabın alınmasına bərabər tutulur.
6.4. Məlumatlandırma Platforma vasitəsilə (Platformada belə bir texniki imkan olduğu təqdirdə) aparıldıqda Bankın Əmanətçini məlumatlandırmaq vəzifəsi Platforma vasitəsilə Əmanət hesabı üzrə çıxarışın Əmanətçiyə təqdim olunduğu andan icra olunmuş sayılır.

## *7. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ*

7.1. Tərəflər, Müqavilə üzrə üzərilərinə götürdükləri öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi və Müqavilə ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə məsuliyyət daşıyırlar.
7.2. Tərəflər Müqavilə üzrə öhdəliklərinin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə bilmədikləri və təsirinə mane ola bilmədikləri Müqavilənin bağlanmasından sonra yaranmış qarşısıalınmaz qüvvə hallarının təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara telekommunikasiya xətlərində ümumi xarakter daşıyan qəza dayanmaları, daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, Tərəflərin münasibətlərini bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, dövlət orqanlarının Müqavilənin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları aiddir.
7.3. Bu Şərtlərin 7.2-ci bəndində göstərilmiş hallar baş verdiyi təqdirdə, bu halların təsiri nəticəsində öz öhdəliklərini icra etmək tam və ya qismən iqtidarında olmayan Tərəf bu hallar barədə digər Tərəfə ləngimədən yazılı şəkildə bildiriş göndərməyi öhdəsinə götürür. Bildirişdə bu halların xüsusiyyətləri haqqında məlumatlar və mümkün olduğu halda, bu halların Tərəfin

Müqavilə üzrə öhdəliklərinin icrasının mümkünlüyünə təsir göstərməsinin qiymətləndirilməsi və öhdəliklərin icra müddəti öz əksini tapmalıdır.
7.4. Fors-major halların mövcudluğunun və təsir müddətinin sübutu kimi səlahiyyətli dövlət və ya digər təşkilat tərəfindən verilən sənədlər çıxış edir.

## *8. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI*

8.1. Tərəflər arasında bağlamış Əmanət müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində tərtib edilmiş və təsir göstərir.
8.2. Müqavilədən və ya onunla əlaqədar yaranan bütün münaqişələr, fikir ayrılıqları və tələblər, o cümlədən Müqavilənin icrasına, pozulmasına, ona xitam verilməsinə və ya qeyri-həqiqiliyinə aid olanlar Tərəflər arasında danışıqların aparılması yolu ilə, danışıqlar nəticəsində kompromisə gələ bilmədikləri halda isə məhkəmə qaydasında Azərbaycan Respublikasının aidiyyəti məhkəmələrində həll edilməlidir.

## *9. ƏMANƏTLƏRİN SIĞORTALANMASI*

9.1. Bank Əmanətlərin sığortalanması Fondunun iştirakçısı olaraq Fonda sığorta haqqı ödəyir. Sığorta haqqı Əmanətçidən tutulmur.
9.2. «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra «Qanun») 2.1.2-ci maddəsinə əsasən aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:
9.2.1. bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;
9.2.2. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
9.2.3. cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
9.2.4. üzərinə həbs qoyulmuş əmanətlər;
9.2.5. cəlb edildiyi günə Qanunun 8.1.20-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş həddən* yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;
9.2.6. fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 000 (iyirmi min) manatdan yuxarı pul vəsaitləri;
9.2.7. fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

** Əmanətlərin sığortalanması Fondunun Himayəçilik Şurasının Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırılmış 07 may 2020-ci il tarixli Qərarına əsasən 01 iyun 2020-ci il tarixdən etibarən xarici valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 2,5 %, milli valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi isə 12 % müəyyən edilmişdir.*
9.3. Bundan başqa, yuxarıda qeyd edilən Qanunun 2.1.5-ci maddəsinə əsasən aşağıdakı şəxslərin əmanətləri də qorunan əmanətlərə aid edilmir:
9.3.1. Bankın Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyəti üzvlərinin və onların yaxın qohumlarının (ər/arvadın, onların valideynlərinin və övladlarının, o cümlədən övladlığa götürülənlərin, bacı və qardaşların) əmanətləri;
9.3.2. Bankın 10 faiz və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslərin və onların yaxın qohumlarının (ər/arvadın, onların valideynlərinin və övladlarının, o cümlədən övladlığa götürülənlərin, bacı və qardaşların) əmanətləri;
9.3.3. kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində Bankın auditini keçirmiş kənar auditorların əmanətləri.

9.4. Qanuna müvafiq olaraq Sığorta hadisəsinə - Bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud qanunvericiliyə müvafiq olaraq əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının Mərkəzi Bank tərəfindən təsdiq edilməsi aiddir.
9.5. Fond sığorta hadisəsinin baş verməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankından bildirişi aldıqdan sonra 7 (yeddi) təqvim günü ərzində aşağıdakı kütləvi informasiya vasitələrində (bundan sonra «KİV») Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir və bildirişi dərc etdirir:
- AzTV;
- İctimai TV;
- «Azərbaycan» qəzeti;
- «Respublika» qəzeti;
- «Xalq» qəzeti;
- «Azərtac» informasiya agentliyi;
- APA informasiya agentliyi.

9.6. Fonddan kompensasiya almaq üçün Əmanətçi KİV-də göstərilən yer üzrə Fonda yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
- Əmanətçinin şəxsiyyət vəsiqəsi və ya şəxsiyyətini təsdiq edən digər sənəd;
- əmanət müqaviləsi və ya qanunvericiliyə müvafiq olaraq əmanəti təsdiqləyən digər sənədlər və onların surətləri.

Kompensasiya almaq üçün Fonda Əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq notarial qaydada təsdiq edilmiş etibarnaməni təqdim etməlidir.

Kompensasiyanın alınması üçün müraciət edilməsi ilə əlaqədar tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər Əmanətçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi Əmanətçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya Əmanətçi tərəfindən təmin edilir.
9.7. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin müraciətini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlər təqdim edildikdə, yuxarıda göstərilən müddət Əmanətçinin ərizəsinə əsasən uzadıla bilər. Lakin, bundan asılı olmayaraq bütün hallarda Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq beş il müddətində saxlanılır.
9.8. Fond kompensasiyanı Əmanətçinin ərizəsini qəbul etdiyi gündən ən geci 90 təqvim günü ərzində ödəməlidir.
9.9. Sığorta hadisəsi baş verdikdə Fond tərəfindən Əmanətçiyə əmanətin 100 faizi həcmində, lakin 100 000 (bir yüz min) manatdan çox olmayaraq kompensasiya ödənilir.
9.10. Fond kompensasiyanı milli valyutada olan əmanətlər üzrə manatla, ABŞ dolları/AVRO-da olan əmanətlər üzrə isə müvafiq olaraq ABŞ dollarında/AVRO-da ödəyir. Əmanətlər ABŞ dolları və ya Avroda olmadıqda, kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödəyir, bu şərtlə ki, kompensasiya Qanuna müvafiq olaraq bu Şərtlərin 9.10-cu bəndində nəzərdə tutulmuş məbləğdən artıq olmasın.
9.11. Əmanətçinin Bankda bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda, onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur. Sığorta hadisəsi Əmanətçinin əmanəti olan Fondun bir neçə iştirakçı bankında baş verdikdə,

kompensasiya hər bir bankda olan əmanət üzrə ayrı-ayrılıqda ödənilir.
9.12. Bank Əmanətçinin yazılı və şifahi sorğularına əsasən Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə sonuncuya məlumat verir.
9.13. Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsilə Fondla əlaqə saxlaya bilər:
Hüquqi ünvan: AZ1014, Azərbaycan Respublikası, Bakı ş., Bül-bül prospekti, 40,
Faktiki ünvan: AZ 1025, Azərbaycan Respublikası, Bakı ş., Babək pr-ti 16.
Tel: (+994) 941;
Faks: (+99412) 596 65 94,
E-mail: adif@adif.gov.az,
Sayt: www.adif.az.

## *10. MÜQAVİLƏNİN MÜDDƏTİ. MÜQAVİLƏYƏ VƏ HAZIRKI ŞƏRTLƏRƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ QAYDASI*

10.1. Müqavilə bu Şərtlərin 2.6-cı bəndinə müvafiq olaraq Əmanətin Əmanətçi tərəfindən Əmanət hesabına daxil edildiyi andan qüvvəyə minir və Əmanətçi tərəfindən Ərizədə əmanətin prolonqasiyası ilə bağlı seçim edilmədikdə, həmin Ərizədə göstərilən Əmanət müddətinin bitməsinə və ya Əmanətin və ya onun bir hissəsinin (Xüsusi şərtlərlə nəzərdə tutulmuş hallardan başqa) Əmanət hesabından çıxarılmasına (silinməsinə) qədər öz qüvvəsini saxlayır.
10.2. Əmanətçi tərəfindən Ərizədə Əmanətin prolonqasiyası ilə bağlı seçim edildikdə, Ərizədə nəzərdə tutulmuş Əmanət müddətinin bitməsinə ən azı 1 (bir) iş günü qalmış Əmanətçi Müqaviləyə xitam vermək niyyəti haqqında Bankı yazılı şəkildə xəbərdar etməsə, Müqavilə hər dəfə onun müddətinin bitməsi anına Bankda mövcud olan bu növ əmanətin şərtləri ilə eyni müddətə uzadılmış hesab edilir. Bu zaman Əmanətçi tərəfindən yeni Ərizənin imzalaması tələb olunmur.
10.3. Bu Şərtlərin 10.2-ci bəndində göstərilənlərə baxmayaraq, Müqavilə müddətinin bitməsi anına Bankın bu növ əmanətlərin qəbuluna xitam verilməsi haqqında qərarı mövcuddursa, Əmanət Müqavilənin şərtləri ilə uzadılmır. Belə olan halda Bank Müqavilə müddətinin bitməsinə ən azı 1 (bir) iş günü qalmış Müqavilə müddətinin uzadılmaması barədə Əmanətçini elektron poçt vasitəsilə məlumat göndərməklə xəbərdar edir.

Bu bəndlə nəzərdə tutulmuş, habelə Müqaviləyə xitam verildiyi bütün digər hallarda Əmanətdə olan vəsaitlərin qalığı bu Şərtlərin müddəalarına müvafiq olaraq Əmanətçinin Cari hesabına, bu hesab bağlandıqda isə Əmanətçinin Əmanətin valyutası ilə eyni valyutada mövcud olan hər-hansı digər cari hesabına köçürülür.
10.4. Əmanətçi Müqavilənin ləğv edilməsi haqqında ərizəni (bu Şərtlərin 4 №-li Əlavəsində nəzərdə tutulmuş forma üzrə) kağız daşıyıcıda öz əl imzası ilə, Mobil tətbiq vasitəsilə yerləşdirilmiş Əmanət üzrə isə elektron formada gücləndirilmiş elektron və ya rəqəmsal imza (Xüsusi şərtlərlə həmin ərizənin kağız daşıyıcıda təqdim edilməsi nəzərdə tutulmuş hallar istisna olmaqla) ilə təsdiq edərək Mobil tətbiq vasitəsilə Banka təqdim etməklə Müqaviləyə istənilən vaxt xitam verə bilər.

Ərizənin təqdim edilməsi tarixi kimi onun Bank tərəfindən qəbul edildiyi tarix hesab olunur. Əmanət müqaviləsi onun ləğv edilməsi haqqında ərizə kağız daşıyıcıda təqdim edildikdə, həmin ərizədə nəzərdə tutulan tarixdən, elektron formada təqdim edildikdə isə, Müqavilənin ləğvi barədə Mobil tətbiq vasitəsilə Əmanətçiyə bildirişin təqdim edildiyi tarixdən ləğv edilir.
10.5. Əmanətçi tərəfindən öz telefon nömrəsinin və ya elektron poçt ünvanı, habelə digər rekvizitlərinin dəyişilməsi barədə Banka bu Şərtlərlə nəzərdə tutulan müddətdə məlumat verilməməsi nəticəsində, habelə Bankdan asılı olmayan digər hallarda Bank Əmanətçini bu Şərtlərin 10.3-cü bəndinin birinci abzasına müvafiq olaraq xəbərdar edə bilmədiyinə görə

Əmanətçiyə dəyə biləcək mümkün zərərlərə görə məsuliyyət daşımır.
10.6. Xüsusi şərtlərlə başqası nəzərdə tutulmadıqda, Əmanətçi Müqavilənin bir sıra şərtləri ilə bağlı Ərizədə etdiyi seçimin dəyişdirilməsi üçün Müqavilənin qüvvədə olduğu istənilən vaxt bu Şərtlərin 3 №-li Əlavəsində nəzərdə tutulan forma üzrə ərizəni kağız daşıyıcıda öz imzası ilə imzalanmış 2 (iki) nüsxədə Banka təqdim edə bilər. Həmin ərizə Bank tərəfindən aksept edildikdən sonra Müqaviləyə müvafiq dəyişikliklər edilmiş sayılır.
10.7. Bank bu bəndin ikinci abzasında nəzərdə tutulmuş hallar istisna olmaqla və üçüncü abzasda qeyd edilmiş hal nəzərə alınmaqla dəyişikliklərin, əlavələrin qüvvəyə minməsinə ən azı 30 (otuz) təqvim günü qalanadək müvafiq xəbərdarlığın Bankın Əmanətçilərə xidmət göstərdiyi sahələrdə olan informasiya lövhələrində və ya Bankın saytında yerləşdirməsi yolu ilə Əmanətçilərə məlumat verməklə bu Şərtlərə və Bankın tariflərinə birtərəfli qaydada dəyişikliklər və/və ya əlavələr edə bilər.

Bank tərəfindən Bankın tariflərində ödənişli xidmətlər siyahısından bəzi xidmətlərin çıxarılması, Əmanətçi ilə bağlanmış Müqavilə üzrə Əmanətçiyə göstərilən xidmətlər üzrə bank komissiyalarının aşağı salınması ilə bağlı, habelə bu bəndin üçüncü abzasında göstərilən şərt nəzərə alınmaqla, bu bəndin birinci abzasında göstərilən sənədlərə edilən və mövcud şərtlərlə müqayisədə Əmanətçi üçün daha əlverişli olan digər dəyişikliklər bu bənddə nəzərdə tutulmuş xəbərdarlıq müddəti gözlənilmədən Bank tərəfindən tətbiq edilə bilər.

Bank tərəfindən Xüsusi şərtlərdə birtərəfli qaydada edilmiş dəyişikliklər, həmin dəyişikliklərin edilməsinə qədər yerləşdirilmiş əmanətlərə münasibətdə həmin Əmanətin prolonqasiyası tarixindən tətbiq edilir (Xüsusi şərtlərdə Əmanət müddətinin bitməsindən sonra onun prolonqasiyası nəzərdə tutulduqda).
10.8. Bank tərəfindən Müqaviləyə (bu Şərtlərə və/və ya Bankın tariflərinə) edilmiş dəyişikliklər və/və ya əlavələr barədə məlumatın əldə edilməsinin təmin edilməsi üçün Əmanətçi hər 10 (on) gündə bir dəfədən az olmayaraq Şərtlərdə və/və ya Bankın tariflərində nəzərdə tutulan dəyişikliklər barədə məlumatların əldə edilməsi üçün müstəqil şəkildə Bankın saytına daxil olmağı öz öhdəsinə götürür. Bank Şərtlərdə və/və ya Bankın tariflərində nəzərdə tutulan dəyişikliklər barədə Əmanətçiyə öncədən məlumatın verilməsi üzrə öz öhdəliklərini lazımı qaydada icra etdikdə, Əmanətçinin məlumatsız olması səbəbindən sonuncuya dəyə biləcək mümkün zərərə görə məsuliyyət daşımır.
10.9. Əmanətçidən bu Şərtlərin 10.7-ci bəndində müəyyən edilmiş müddətdə nəzərdə tutulan dəyişikliklərlə bağlı hər-hansı etirazların daxil olmaması Əmanətçinin Müqaviləyə (Şərtlərə və/və ya Bankın tariflərinə) edilməsi nəzərdə tutulan dəyişikliklərlə razı olduğunu bildirir. Əmanətçi Bank tərəfindən Müqaviləyə (Şərtlərə və/və ya Bankın tariflərinə) edilməsi nəzərdə tutulan dəyişikliklərlə razı olmadıqda, Əmanətçi Müqavilənin icrasından birtərəfli qaydada imtina edə və bu Şərtlərə müvafiq olaraq Əmanətin qaytarılmasını tələb edə bilər.

## *11. YEKUN MÜDDƏALAR*

11.1. Müqavilənin (Şərtlərin və/və ya Bankın tariflərinin) hər hansı müddəasının, o cümlədən yeni normativ aktların qəbul edilməsindən irəli gələn etibarsızlığı, onun digər müddəalarının və bütövlükdə Müqavilənin etibarsızlığına gətirib çıxarmır.
11.2. Bununla Əmanətçi həm Bank, həm də üçüncü şəxslər tərəfindən Əmanətçiyə Müqavilədən irəli gələn və/və ya onunla bağlı olan xidmətlərin göstərilməsi, yeni növ xidmət və məhsulların təqdim edilməsi, məlumatların emalı, statistik hesabatların hazırlanması, risklərin idarə edilməsi məqsədilə Əmanətçiyə aid fərdi məlumatların (ad, soyad, ata adı, mobil və stasionar telefon nömrələri, elektron poçt ünvanı, doğum tarixi, şəxsiyyət vəsiqəsinin məlumatları, Müqavilədən irəli gələn öhdəliklərin icrası və/və ya yuxarıda qeyd edilən xidmətlərin göstərilməsi üçün tələb olunan digər məlumatlar) Bank tərəfindən toplanılmasına və işlənilməsinə (avtomatlaşdırılmış işlənmə də daxil olmaqla fərdi məlumatların yazılması, saxlanması, sistemləşdirilməsi, dəqiqləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, istifadəsi,

üçüncü şəxslərə ötürülməsi (o cümlədən transsərhəd ötürülməsi), çıxarılması, adsızlaşdırılması, bloklaşdırılması və məhv edilməsi), habelə Bank və üçüncü şəxslər tərəfindən müxtəlif kommunikasiya vasitələri ilə onunla əlaqə saxlanılmasına razılıq verir. Bu bəndin məqsədləri üçün üçüncü şəxslər deyildikdə, qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin xidmətlərin göstərilməsi məqsədilə Bank ilə bağlanmış müqavilələrə əsasən belə məlumatı əldə etmək hüququna malik şəxslər başa düşülür).

Qeyd edilən razılıq Müqavilənin qüvvədə olma müddəti ərzində, həmçinin yerləşdirilmişnin bitdiyi tarixdən 5 (beş) il ərzində qüvvədə olur. Bu müddət bitdikdən sonra fərdi məlumatlar qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilir və ya arxivləşdirilir.

11.3. Əmanətçi aşağıdakı hallarda lazımi qaydada məlumatlandırılmış sayılır:

- korrespondensiya Banka məlum olan Əmanətçinin sonuncu qeydiyyat (yaşayış) ünvanı üzrə göndərildikdə;
- korrespondensiya Əmanətçiyə şəxsən verildikdə;
- Əmanətçinin Ərizədə (Əlavə № 2) və ya bu Şərtlərin 4.3.2-ci yarımbəndinə müvafiq olaraq Banka təqdim etdiyi yazılı xəbərdarlıqda göstərdiyi elektron poçt ünvanına məlumat göndərildikdə;
- Digital əmanətlər üzrə Mobil tətbiqdən istifadə edilməklə (Mobil tətbiqdə belə bir texniki imkan olduğu təqdirdə) Bank tərəfindən Əmanətçiyə məlumat/bildiriş göndərildikdə.

11.4. Bank aşağıdakı hallarda lazımi qaydada məlumatlandırılmış sayılır:

- Müqavilə ilə nəzərdə tutulmuş hallarda Əmanətçi tərəfindən yazılı şəkildə təqdim edilən ərizələr kağız daşıyıcıda rəsmiləşdirilməklə Banka və ya onun filiallarından birinə olduğu yer üzrə təqdim edildikdə;
- ▪ Digital əmanətlər üzrə Mobil tətbiqdən istifadə edilməklə (Mobil tətbiqdə belə bir texniki imkan olduğu təqdirdə) Əmanətçi tərəfindən Banka məlumat/bildiriş göndərildikdə.

11.5. Bu Şərtlərə olan Əlavələr onun ayrılmaz tərkib hissəsini təşkil edir.